# Azərbaycanda inklüziv təhsilin mövcud vəziyyəti və inkişaf problemləri

**Kəmalə Cahid qızı Omarova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** kemaleomarova1@gmail.com

**Rəyçilər:** p.ü.f.d. G.T. Eminova,
p.ü.f.d. P.M. Həsənova

**Açar sözlər:** inklüziv təhsil, əlillik, xüsusi məktəb, xüsusi internat məktəbləri, evdə təhsil, sosiallaşma, inteqrasiya

**Ключевые слова:** инклюзивное образование, инвалидность, частная школа, специальные школы-интернаты, учиться дома, общаться, интеграция

**Key words:** inclusive education, disability, private school, special boarding schools, study at home, socialize, integration

Dünya təcrübəsində müxtəlif üsullarla sınaqdan keçirilmiş, məqsəd və vəzifələri, əsas prinsipləri, tətbiqedilmə mexanizmi dəfələrlə müzakirə olunaraq, araşdırmalara cəlb edilərək təkmilləşdirilmiş inklüziv təhsil ümumi profili baxımdan əlilliyi olan uşaqlar üçün böyük ümidlər vəd edir. Səhhətində müxtəlif səpkili fiziki və psixoloji əlilliyi olan uşaqlar üçün yeni mühit, yeni dostlar, sosiallaşma, qorxulardan xilas olma, ümidlərin möhkəmlənməsi, təhsil baryerlərinin aşılması, bərabərləşmə, diskriminasiyanın aradan qalxması, cəmiyyətə adaptasiya kontekstində gələcək haqda sağlam düşüncə və valideyn-şagird-müəllim üçbucağının yeni rakursdan daha fərqli formada təşkili cəmiyyətin sosial və təhsil ab-havasını xeyli dəyişə bilər. İşləmə mexanizmi əlilliyi olan uşaqlar üçün mövcud çatışmazlıqların aradan qaldırılmasına hədəflənmiş və dünyada öz təsdiqini taparaq faydalılıq əmsalını gündən-günə yüksəldən inklüziv təhsil, Azərbaycan təhsil mühitinin bu istiqamətdə illərdir var olan problemləri aradan qaldırmaq və ya problem olma statusunu zəiflətmək üçün nə dərəcədə əhəmiyyətli olub?

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, *2017-ci ilin əvvəlində müavinət alan əlilliyi olan 18 yaşadək uşaqların sayı 71934 nəfər olub. 2016-2017-ci tədris ilinin əvvəlində xüsusi və internat məktəblərdə, eləcə də əlilliyi olan uşaqlar üçün təşkil edilmiş siniflərdə təhsil alan əlilliyi olan uşaqların sayı 6377-dir. Həmin məlumata əsasən, onlardan 3237-si xüsusi məktəbdə, 2612-si xüsusi internat məktəblərində, 528-i isə ümumtəhsil məktəblərində əlilliyi olan uşaqlar üçün siniflərdə təhsil alıb (1; s. 9).* Bu statistika mövcud rəqəmlərə əsaslanaraq inklüziv təhsilə əlçatanlıq amilinin hansı nisbətdə olduğunu göstərir.

Beynəlxalq təcrübələrə istinad edərək Azərbaycanda inklüziv təhsilin daha geniş miqyas alması və bu təhsilə illərdir ehtiyac duyan ailələrin tələbatının ödənilməsi üçün müxtəlif pilot layihələr hazırlanır, bu layihələrin həyata keçirilməsi üçün ümumtəhsil müəssisələri seçilir və həmin məktəblər inklüziv təhsilin tətbiqi məqsədilə lazım olan resurslarla təmin olunur. Qarşıya qoyulan missiya əlilliyi olan uşaqların inklüziv təhsil mühitində yeni öyrənmə, öyrətmə imkanları və yeni sosial mühitlə tanışlıq olsa da, layihənin əhatə dairəsi, müddəti, əlçatanlıq nisbəti az olduğu üçün faydalılıq əmsalı da böyük çevrəni əhatə etmir və problemin həlli istiqamətində çatışmazlıqlar öz mövcudluğunu qoruyub saxlayır.

İnklüziv təhsilə əlçatanlıq ailədən-ailəyə, uşaqdan-uşağa və bölgədən-bölgəyə dəyişməklə, kəskin fərqlər kontekstində və müsbət nəticə ilə nəticəsizlik fonunda özünü büruzə verir. Bö-

yük ümidlər vəd edən inklüzivliyə nail olmaq əlil övladı olan hər bir valideyn üçün əsas istək hesab olunsa da, məsələyə yanaşma və adıçəkilən təhsil mexanizminə reaksiya baxımından ailələr iki qrupa ayıra bilərik:

Birinci qrup ailələr övladlarının mövcudluğunu hələ də qəbul edə bilməyib onun cəmiyyətə inteqrasiyası üçün inklüziv təhsilin mükəmməl bir vasitə ola biləcəyini dərk etmədən uşağının hazırki vəziyyətindən utanıb onun sosiallaşmasından çəkinən ailələrdir. Bu qəbildən olan ailələr sadəcə düşüncələrində formalaşdırdıqları yanlış baryerləri əvvəlcə özləri aşmalıdırlar ki, növbə təhsil almaq üçün əlilliyi olan övladlarına gəlib çatsın. Təbii ki, bu cür valideynlərin özləri üçün süni olaraq yaratdıqları düşüncə əngəlini aradan qaldırmaları işində maarifləndirmə tədbirlərinin geniş səpkidə həyata keçirilməsi mütləqdir. Onlarla aparılan fərdi söhbətlər fonunda qorxduqları məqamın əslində onların övladlarının xilas olması üçün maneə təşkil etdiyini anladıqları gün həm özlərinə, həm də övladlarının gələcəyinə olan ümid nisbəti kəskin şəkildə artmağa başlayacaqdır. Deməli, burada inklüziv təhsilin canlanmasına, inkişafına, təkmilləşməsinə və daha geniş auditoriyanı əhatə etməsinə çalışan məsul şəxslər valideyn amilini də nəzərə alaraq onlarla söhbətlərin və hərtərəfli ünsiyyətin atılacaq ilk addımlardan olduğunu müəyyən etməlidirlər.

İkinci qrup ailələr övladının oxuyub, cəmiyyətə adaptasiya olub yaşadığı cəmiyyətin gələcəyini  müəyyən edəcək bir fərdə çevrilməsini arzulayanlar, bunun üçün mübarizə aparanlar, mövcud olan bütün fürsətlərdən faydalanıb imkanları genişləndirmək üçün dəridən-qabıqdan çıxanlardır. Həmin valideynlər əlilliyi olan övladının təhsil alması üçün sərhəd tanımayan mühitin formalaşmasını istəyirlər. Bu +tip ailələrlə işləmək və onların övladlarını pilot layihələrə, respublika və beynəlxalq əhəmiyyətli proqramlara inteqrasiya etmək qət olunacaq məsafəni daha da yaxınlaşdırır.

Ümumiyyətlə, uşağın sosiallaşması və cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirmək üçün bir çox məqamlara ciddi fikir vermək lazımdır:

— *İntellektin inkişafı;*
— *Emosional sahənin inkişafı;*
— *Stressə qarşı dözümlülüyün inkişafı;*
— *Özünə inamın inkişafı;*
— *Gerçək aləmə pozitiv münasibət və başqalarını qəbul etmənin inkişafı;*
— *Müstəqilliyin inkişafı;*
— *Özünü motivləşdirmənin inkişafı (2, s. 38).*

Ailədən-ailəyə dəyişən inklüziv təhsilə yanaşma formaları isə öz növbəsində uşaqdan-uşağa da tamam fərqli istiqamətlərdə təzahür edir. Fiziki, əqli-psixoloji məhdudiyyətlərin səviyyəsindən, eyni zamanda həyata baxış tərzindən, təhsilə meyllilik dərəcəsindən, adaptasiya olunma, ünsiyyət qurma, uyğunlaşma meyarlarından asılı olaraq inklüziv təhsilin tətbiqinin mümkünlüyü ilə də bağlı müəyyən uyğunsuzluqlar özünü göstərir ki, bu da əlilliyi olan uşaqların adıçəkilən təhsilə əlçatanlıq məsələsində problemlər yaradır. Bəzi uşaqlar mövcud durumları dəyərləndirildikdən sonra inklüziv təhsilə cəlb olunur, digərləri isə xüsusi məktəblərin imkanlarından faydalanır, eyni təhsil prinsiplərinin fərqli təzahürləri ilə oxumağa, öyrənməyə başlayırlar. Bu zaman da səhhətlərində olan eyni və fərqli məqamlar onları fərqli qütblərdə təhsil almağa vadar edir. Əlilliyi olan uşaqların bir qismi xüsusi məktəblərdə və eyni sinifdə təhsil alsa da, digərləri əlilliyi olmayan uşaqlarla eyni məktəbdə, bəzən isə eyni sinifdə təhsil almaq imkanı qazanırlar. Təbii ki, ikinci qrupa daxil olan uşaqlar bir çox diskriminasiyalardan azad olunaraq, daha çox sosiallaşır, daha fərqli dostlar əldə edir ki, bu amil onların emosional-psixoloji durumlarına da müsbət təsir göstərir. Birinci qrupa daxil olan uşaqlar isə olduqları

mühitdə yalnız əlilliyi olan uşaqları görür, təhsildə müəyyən uğurlar əldə etsə də, psixoloji vəziyyət daha gərgin və daha ümidsiz şəkildə özünü göstərir.

Bölgədən-bölgəyə fərqlilik amilinə gəlincə isə paytaxt Bakı ilə regionlar arasında inklüziv təhsilin tətbiqi məsələsində bir sıra çatışmazlıqlar özünü göstərir. Aydın məsələdir ki, ümumtəhsil müəssisələri üçün hazırlanan dərsliklər, elektron informasiya-kommunikasiya texnologiyaları, təhsil üçün vacib olan digər resurslar əlilliyi olan uşaqların təhsili prosesində istifadə məqsədilə nəzərdə tutulmayıb. Bakı şəhəri inklüziv təhsil üçün geniş imkanlara sahib və bir sıra pilot layihələrin, proqramların tətbiq edildiyi məktəblərə sahibdir. Əlilliyi olmayan uşaqlarla eyni sinifdə təhsil alma üstünlüyünə sahib əlilliyi olan şagirdlər onlardan fərqli olaraq nəinki həmyaşıdları ilə eyni sinifdə oxumaq, ümumiyyətlə, tədris resursu baxımdan kifayət qədər çatışmazlıq yaşayan minlərlə uşaq inklüziv təhsilin əlçatanlığı imkanından yararlanacağı günü gözləyir. Yəni regionlarda mövcud olan məktəblər əlilliyi olan uşaqları qəbul etmək üçün zəruri maddi-texniki bazaya sahib deyil.

Evdə təhsil almağa məcbur olan uşaqlar üçün təyin olunan müəllim isə bəzi hallarda işinə qeyri-ciddi yanaşaraq vəzifə borcunu düzgün yerinə yetirmir. Təhsildə əlçatanlıq amilinin hamıya aid olmaması ilə bərabər, evdə təhsilin də natamamlıq fonunda yerinə yetirilməsi ikiqat problem fonunda təzahür edir. Regionlarda yaşayan valideynlərin isə kiçik bir qismi paytaxt məktəblərindəki xüsusi üstünlüklərdən yararlanmaq imkanına malikdirlər. Məsələnin digər bir tərəfi isə tamamilə insanların məsələyə emosional yanaşması ilə bağlıdır. Sinifdə əlilliyi olan uşağın təhsil almasından narahat olan valideyn "uşağım xəstə uşaqlarla niyə bir sinifdə təhsil almalıdır" dediyi zaman artıq inklüziv təhsilin əlçatan olub olmaması yox, icmanın fərdlərindən birinin dediyi bu qısa ifadə daha ağrılı və daha problemli amilə çevrilir.

Bəzən isə məsələyə hissi-mənəvi nöqteyi-nəzərdən yanaşılır və əlilliyi olan uşaqların problemləri ətrafdakılar tərəfindən cəmiyyətin öhdəliyi, həll edilməli əsas məsələ kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Sanki uşaqlar heç kimdən dəstək almadan hər şeyi özləri bacarmalıdırlar, bu onların öz şəxsi problemidir və şagirdlər həmin problemi özləri həll etməlidirlər.

*Məlumdur ki, əlilliyi olan, ayrı-seçkiliyə məruz qalan uşaqda özünə qapanma, digər uşaqlardan qaçmaq, onlara yovuşmamaq kimi əsaslı psixi dəyişikliklər əmələ gəlir. Uşağın ailənin üzvlərinə və özünə münasibəti də dəyişir. Nəticədə belə uşaqlarda əsəbilik, psixi pozğunluq halları yaranır (3, s. 52). Bu əlamətlərin daha da dərinləşdiyi bir zamanda uşağın sinifdə və ya sinifdən xaric hansısa yüngül bir bullinqə məruz qalması problemi ikiqat artırmış olur (4, s. 370).*

Deyilənləri yekunlaşdıraraq, deyə bilərik ki, inkülziv təhsil əslində təhsil alma imkanları olan, ancaq əlilliyi olan uşaqların cəmiyyətdəki diskriminasiyasını və onlara qarşı olan yanlış düşüncəni aradan qaldırmağa xidmət edir.

**Məqalənin aktuallığı.** İnklüziv təhsilə əlçatanlığın ailədən-ailəyə, uşaqdan-uşağa və bölgədən-bölgəyə dəyişməklə, kəskin fərqlər kontekstində və müsbət nəticə ilə nəticəsizlik fonunda özünü büruzə verməsi, valideynlərin və cəmiyyəti, dövlət və qeyri-dövlət qurumlarını narahat edən əsas məsələlərindəndir. Böyük ümidlər vəd edən inklüziv təhsildə yüksək nəticələrə nail olmaq üçün aparılan tədqiqat işi bu mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən: 2017-ci il müavinət alan əlilliyi olan 18 yaşadək uşaqların sayı 71934 nəfər, 2016-2017-ci tədris ilində 6377 nəfərin internat məktəblərdə, eləcə də əlilliyi olan uşaqlar üçün təşkil edilmiş siniflərdə və evdə təhsilə cəlb olunan əlilliyi olan uşaqların sayı, təhsil mühiti, ink-

lüziv təhsil işləmə mexanizmi əlilliyi olan uşaqlar üçün mövcud çatışmazlıqların aradan qaldırılmasına hədəflənmiş və dünyada öz təsdiqini taparaq faydalılıq əmsalını yüksəldən, bu istiqamətdə illərdir var olan problemləri aradan qaldırmaq və ya problem olma statusunu zəiflətmək üçün qarşıya qoyulan məqsədlər, nəticələr açıqlanır. Təhsil baryerlərinin aşılması, bərabərləşmə, diskriminasiyanın aradan qalxması, cəmiyyətə adaptasiya kontekstində gələcək haqda sağlam düşüncə və valideyn-şagird-müəllim üçbucağının yeni rakursdan daha fərqli formada təşkilindən söhbət açılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəb müəllimləri, valideynlər, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi. Demokratik Təşəbbüslər İnstitutu, Bakı, 2018.
2. Azərbaycan Respublikası Təhsil İnstitutu. İnklüziv təhsilə cəlb olunan uşaqlarla işin aparılması, Bakı, 2020.
3. Təhsil İşçilərinin Peşəkar İnkişaf İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018.
4. Hacımuradova L, Bayramova Z. İnklüziv təhsil prosesində Bullinq anlayışı və onun aradan qaldırılması yolları. //V Beynəlxalq Sosial Elmlər Konqresi. Fransa, Paris, 07 fevral 2021.
5. Eminova G. İnklüziv təhsil bütün uşaqlar üçün təhsildir. BQU-nun "Elmi əsərlər"i. Cild 10, № 2, 2019.

**К.С. Омарова**

## Современное состояние инклюзивного образования в Азербайджане и проблемы развития

## Резюме

В статье рассматривается становление, современное состояние и проблемы развития инклюзивного образования в Азербайджане. Показано, что новая среда для детей с различными видами физических и психологических отклонений, новые друзья, социализация, преодоление страхов, укрепление ожиданий, преодоление образовательных барьеров, равенство, устранение дискриминации, здравый смысл в отношении будущего в контексте социальной адаптации. и родитель-ученик. Организация треугольника учитель в ином виде с новой точки зрения может существенно изменить социальный и образовательный климат общества. Инклюзивное образование, которое направлено на устранение существующих недостатков детей с ограниченными возможностями и получает всемирное признание, чрезвычайно важно для решения давних проблем азербайджанской образовательной среды или ослабления ее статуса как проблемы.

**K.C. Omarova**

# Current situation of inclusive education in Azerbaijan and development problems

## Summary

The article discusses the formation, current situation and development problems of inclusive education in Azerbaijan. It is shown that a new environment for children with various types of physical and psychological disabilities, new friends, socialization, overcoming fears, strengthening expectations, overcoming educational barriers, equality, elimination of discrimination, common sense about the future in the context of social adaptation and parent-student The organization of the teacher's triangle in a different form from the new perspective can significantly change the social and educational climate of society. Inclusive education, which aims to address the existing shortcomings of children with disabilities and is gaining worldwide recognition, is extremely important to address the long-standing problems of the Azerbaijani educational environment or to weaken its status as a problem.

**Redaksiyaya daxil olub:** 04.10.2021